# SPORTSMAN

CEV EuroVolley 2023

№ 144 / 2023 / 10 manat www.sportsman.az Jurnal 2004-cü ildən nəşr olunur

# TÜRKİYƏ KOMANDASI AVROPA ÇEMPİONU!






# OCAQ SPORT KLUBU




ÖVLADLARINIZIN SAĞLAM, AKTİV VƏ EYNİ ZAMANDA GÜCLÜ OLMASINI İSTƏYİRSİNİZ!? O ZAMAN ONLARI GİMNASTİKA MƏŞQLƏRİNƏ YAZDIRIN. GİMNASTİKA MƏŞQLƏRİ ÜÇÜN RAHATLIQLA ETİBAR EDƏCƏYİNİZ MƏKAN İSƏ "OCAQ SPORT" KLUBUDUR.
ƏLAQƏ NÖMRƏSİ: +99470 879 93 69 / +99450 642 92 82
ÜNVAN: ABBAS SƏHHƏT KÜÇƏSİ 2, HEYDƏR ƏLİYEV ADINA İDMAN ARENASI
WWW.OCAQSPORT.AZ
OCAQKLUB
OCAQSPORTKLUBU
Ocaq
SPORT KLUBU

İSTƏNİLƏN NÖV OFİS MEBELLƏRİ









(+994) 12 525 41 52
(+994) 55 208 97 82

Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b

salon@offissa.com

www.offissa.com

offissa.dizayn

Offissa Dizayn

Offissa Dizayn

Onlayn Kataloq

ABB

Azərbaycan Beynəlxalq Bankı

*Müasir, Faydalı, Universal*

# BU SAYIMIZDA




*Atıcılıq üzrə 53-cü dünya çempionatı*

**səh.6**



*Şahmat üzrə Dünya Kuboku*

**səh.14**




*II MDB Oyunlarından 10 qızıl, 17 gümüş, 35 bürünc medal*

**səh.20**




*Türkiyə KOMANDASI Avropa çempionu!*

**səh.28**




*Badmintonçularımızdan 3 medal*

**səh.34**



*Güləşçilərimizdən 9 medal*

**səh.36**



*Dünya çempionatından 5 medal*

**səh.38**



*Zaur Cəfərov ən yüksək mükafatını qazandı!*

**səh.40**



*Həndbol üzrə Avropa çempionatı*

**səh.42**



*40-cı dünya çempionatından Olimpiya lisenziyası*

**səh.46**

**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*əməkdar jurnalist*
*idman ustası*

Ünvan: Bakı, Fətəli Xan Xoyski 10,
Tofiq Bəhramov adına
Respublika Stadionu
Telefon: 012 511 15 32
e-mail: sportsmagazine@mail.ru
www.sportsman.az

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Reklamlarda gedən mətnlərə görə jurnal məsuliyyət daşımır.

Jurnalda "AZƏRTAC" DİA-nin materiallarından istifadə edilib.

***Üz səhifədə:***

**Voleybol üzrə Türkiyə milli komandası fəxri qonaqlarla**

# ATICILIQ ÜZRƏ 53-cü DÜNYA ÇEMPİONATI



15 avqust 1 sentyabr tarixlərində Bakı atıcılıq üzrə 53-cü dünya çempionatına ev sahibliyi edib. Çempionatda 101 ölkədən 1239 idmançı mübarizə aparıb. Azərbaycanı bu mötəbər yarışda 31 idmançı təmsil edib. Onlardan 12 nəfəri stend atıcılığı, digərləri isə güllə atıcılığı üzrə yarışlarda güclərini sınayıblar. Dünya çempionatında gələn il keçiriləcək Paris Yay Olimpiya Oyunlarına 48 lisenziya təqdim edilib.






Avqust ayının 15-i atıcılıq üzrə 53-cü dünya çempionatının açılış mərasimi keçirilib. "Baku Crystal Hall"da təşkil olunan açılış mərasimində əvvəlcə iştirakçı ölkələrin bayraqları nümayiş olunub.

Ardınca Azərbaycan mədəniyyəti ilə bağlı videoçarx nümayiş etdirilib. Bundan sonra Azərbaycan Respublikasının Dövlət Bayrağı səhnəyə gətirilib və Dövlət Himni səsləndirilib.

Sonra Beynəlxalq Atıcılıq İdmanı Federasiyasının (ISSF) bayrağı səhnəyə gətirilib və federasiyahın himni səsləndirilib.









**Fərid Qayıbov**
*Gənclər və idman naziri*




**Luçiano Rossi**
*ISSF prezidenti*

*Gənclər və idman naziri Fərid Qayıbov açılış nitqi zamanı bu il ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu xatırladıb:* “Bu münasibətlə federasiyalarımız tərəfindən müxtəlif irimiqyaslı tədbirlər, yarışlar keçirilir. Açılışını etdiyimiz və Azərbaycanda ilk dəfə atıcılıq üzrə dünya çempionatının məhz Heydər Əliyevin 100 illiyini qeyd etdiyimiz ildə keçirilməsi heç də təsadüfi deyil. Ümummilli Lider daim idmana xüsusi diqqət ayırıb və idmançılara dəstəyini əsirgəməyib”.

“Azərbaycan irimiqyaslı tədbirləri, yarışları keçirməkdə böyük təcrübəyə malikdir. Bütün bu tədbirləri keçirmək dövlətin dəstəyi olmadan mümkün deyil. Azərbaycanda idman dövlət siyasətidir. Bu dövlət siyasəti ölkə başçısı Prezident İlham Əliyev tərəfindən müəyyən olunub. Onun verdiyi tapşırıqlar, müxtəlif dövlət qurumlarının, federasiyaların birgə işi nəticəsində Azərbaycan idman sahəsində yüksək nəticələr əldə etməkdədir. Beynəlxalq Atıcılıq İdmanı Federasiyasına Azərbaycana inandıqları üçün və yarışı bizə həvalə etdiklələri üçün və yarışın təşkilində əməyi keçən hər kəsə ölkəmiz adından dərin təşəkkürümü bildirmək istəyirəm. Bütün idmançılara uğur arzu edirəm”, - deyə o əlavə edib.

*Açılış mərasimində çıxış edən ISSF prezidenti Luçiano Rossi Bakının bir sıra beynəlxalq yarışlara ev sahibliyi etdiyini vurğulayıb:* “Bu gün 2023-cü il BİAF dünya çempi-





onatının açılış mərasimi münasibətilə dünya idman atıcılığı üzrə bütün idmançıları təbrik edirəm. Bu axşam möhtəşəm Kristal zalında dünya atıcılıq çempionatının açılış mərasimini qeyd edirik. Prezident İlham Əliyevin uzaqgörən siyasəti və idmana olan sadiqliyi nəticəsində Azərbaycanda keçirilən Avropa Oyunlarından sonra Bakı bir sıra dünya səviyyəli yarışlara ev sahibliyi edir. Həmçinin Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya da öz minnətdarlığımızı bildiririk ki, Azərbaycanda müxtəlif idman növlərinin inkişafına böyük töhfə verir. Parisdə keçiriləcək Olimpiya Oyunlarına cəmi bir il qalıb. Bu dünya çempionatı nəticəsində 2024 Paris Yay Olimpiya Oyunlarına gedəcək idmançılar müəyyən olunacaq".

Bundan sonra idmançılar, məşqçilər və hakimlərin andiçmə mərasimi baş tutub. Bununla da açılış mərasiminin rəsmi hissəsi başa çataraq, bədii hissəyə keçid alıb.











Gərgin mübarizə əzmində keçən dünya çempionatında Azərbaycan idmançıları da medalsız qalmadı. Avqustun 23-də qadınlar arasında 25 metr məsafəyə tapançadan standart atəş açma yarışında komandamız gümüş medal qazanıb. Zeynəb Sultanova, Nigar Nəsirova və Nərminə Səmədovadan ibarət "üçlük" yalnız Çin komandasından geri qalıb.

Növbəti gün isə 25 metr məsafəyə tapançadan mərkəzə atəş açma növündə kişi və qadınların yarışı keçirilib. Yekun nəticələrə əsasən, Azərbaycan komandası növbəti dəfə uğur qazanıb. Belə ki, ölkəmizi dünya çempionatında təmsil edən Nigar Nəsirova qızıl medal əldə edib. Gümüş medala yığmamızın digər üzvü Nərminə Səmədova yiyələnib. Üçüncü yerə Monqolustandan olan atlet Xişiqderger Enxbat sahib olub.

Kişilərin mübarizəsində Al-






maniyanı təmsil edən Kristian Reytz qızıl medal qazanıb. Gümüş medalı Estoniyanı təmsil edən Peeter Olesk aktivinə yazıb. Sloveniya atleti Joze Çeper bürünc medala yiyələnib.

Kişilər arasında komanda növündə Almaniya birinci, Koreya ikinci, Hindistan üçüncü olub.





**Nigar Nəsirova**
*Dünya çempionu*

## "Qızıl medal qazanacağımı gözləmirdim"

"Bu idman növünə 2004-cü ildə İradə Aşumovanın Afinakı Yay Olimpiya Oyunlarında bürünc medal qazanmasından sonra gəlmişəm. Lakin zədələndiyimə görə uzun müddət idmandan uzaq qaldım. 2016-cı ildə yenidən məşqlərə başladım. Bir il sonra Sloveniyada keçirilən Avropa çempionatında qarışıq komanda yarışında bürünc medal götürdüm. Həmin il İslam Həmrəylik Oyunlarında fərdi yarışda da eyni uğura imza atdım. Bundan sonra beynəlxalq yarışlarda iştirak etməyə davam etdim. Həm Ruslan Lunyovla, həm də fərdi olaraq medallar qazanırdım. Ötən il Misirdə keçirilən dünya çempionatında 50 metr məsafəyə atəş açmada bürünc medala sahib çıxdım.

Dünya çempionatına gəldikdə isə qızıl medal qazanacağımı gözləmirdim. Bütün diqqətimi yarışa və işimə yönəltmişdim. Nəticə barədə heç nə düşünmürdüm. Əslində yarışın doğma divarlar arasında keçirilməsi bizə çətinlik yaradır. Çünki hamı istəyir ki, qələbə qazanaq. Elə olanda idmançılarda gərginlik yaranır. Həm özümüz birinci olmağı hədəfləyirik, həm də insanları sevindirmək istəyirik. Ötən il nənəm vəfat etmişdi. Demişdim ki, bu yarışda qalib gəlsəm, medalı ona həsr edəcəyəm.

Ötənilki dünya çempionatında 10 metr məsafəyə atəş açmada Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya qazanmaq alınmadı. Gələn il Macarıstanda keçiriləcək Avropa çempionatında məhz Paris olimpiadasına lisenziya əldə etmək uğrunda mübarizə aparacağam. Ümid edirəm ki, buna nail olaram. Həmişə 1-2 xalım çatmır. Ötən il Xorvatiyadakı yarışda təsnifatda 3-cü olub finala vəsiqə qazanmışdım. Düşünürdüm ki, medal cibimdədir. Həyəcanlandım, atışlarımı düzgün edə bilmədim. Həm medal getdi, həm də lisenziya əlimdən çıxdı. İnanıram ki, bu dəfə hər şey yaxşı olacaq".

## "Dünya çempionatı çətin ki, bir də bu səviyyədə keçirilə bilsin"



**Villi Qrill**
**İSSF-nin baş katibi**

"Çox sayda dünya çempionatında və 9 olimpiadada iştirak etmişəm. Azərbaycan təşkilatçılıq baxımından birincidir. Burada 14 dünya rekordu qırıldı. İndiyə qədər mundiallarda bu qədər rekord olmamışdı. Eyni zamanda olimpiadaya 48 lisenziya verildi ki, bu da böyük nailiyyətdir. Azərbaycan elə təşkilatçılıq etdi ki, dünya çempionatı çətin ki, bir də bu səviyyədə keçirilə bilsin. Buna görə Azərbaycan hökumətinə, Azərbaycan Atıcılıq Federasiyasına təşəkkür edirəm. Bu, bir nəfərin yox, ümumi komandanın işinin nəticəsidir. Federasiyanın baş katibi Emin Cəfərovun fəaliyyətini xüsusi vurğulamaq istərdim. O, mənim dostum yox, qardaşımdır, bizə çox kömək etdi. Eyni zamanda könüllülərə təşəkkür edirəm. 30 illik karyeram ərzində gördüyüm ən fəal könüllülər idi. Azərbaycanda, doğma ölkəmdə bağlanış mərasimini etmək mənim üçün çətin oldu".

## "Dünya çempionatında qazandığımız nəticədən razıyıq"

“Beynəlxalq Atıcılıq bu Federasiyasının baş katibi Villi Qrill qeyd etdi ki, dünya çempionatı bundan öncə heç bir ölkədə belə yüksək səviyyədə təşkil olunmayıb, Azərbaycan bu yarışın necə keçirilməli olduğunu bütün dünyaya göstərdi. Bu turnirdə üç medal qazanmışıq. Sonuncu dəfə dünya çempionatında qızıl medalı 2001-ci ildə Zemfira Meftahətdinova əldə etmişdi. Bundan əlavə, qeyd etməliyəm ki, dünya çempionatlarında ilk dəfə bu sayda mükafata sahib çıxırıq. Daha əvvəl ən çox iki medal qazanmışdıq. Cənubi Koreyada gənclər arasında baş tutan mundialda isə iki mükafat əldə olunub. Bu isə bizdə irəliləyişin olduğunu göstərir. Komandamız da gəncləşir. Ruslan Lunyov kimi güclü idmançılarımız var. Daha yaxşı nəticə göstərə bilərdilər. Bu, bir az psixoloji idman növüdür. Tam istədiyimiz kimi olmasa da, nəticədən razıyıq".




***Emin Cəfərov***
*Azərbaycan Atıcılıq Federasiyasının baş katibi*

# BAKI MUNDİALINDA 13 REKORD

Bakıda keçirilən atıcılıq üzrə 53-cü dünya çempionatını maraqlı edən məqamlardan biri də rekordlardır. 29 avqusta qədər turnir zamanı 7 yeni rekord qeydə alınıb. 6 növdə isə mütləq nəticə təkrarlanıb. Xüsusilə kişilər arasında 25 metr məsafəyə tapançadan cəld atəşaçma növündə qızıl medal qazanan Li Yuehonq tarixi rekorda imza atıb. O, mümkün 40 atışdan 39-u dəqiq yerinə yetirməklə buna nail olub.

50 metr məsafəyə 3 mövqedən atəş üzrə qadınlar arasında yarışda ABŞ komandası 1774 xal toplayaraq yeni dünya rekordunun sahibi olub. Şimali amerikalılar əvvəlki göstəricini 19 xal yaxşılaşdırıblar.

Dairəvi stend atıcılığında da qadınlardan ibarət ABŞ komandası yeni rekorda sahib çıxıb. Ostin Ceuell Smit, Dania Jo Vitsi və Samanta Simonton triosu 365 xal toplamaqla buna nail olub.

ABŞ təmsilçiləri dairəvi stend atıcılığının qarışıq komanda növündə də rekord imza atıblar. Təsnifat mərhələsində Ostin Ceuell Smit və Vinsent Hankok cütlüyü 149 xal toplayaraq bu uğura imza atıb.

50 metr məsafəyə uzanaraq atəş açma yarışının qarışıq komanda növündə isveçrəlilər rekord sahibi olub. Çiara Leone və Yan Loxbihler cütlüyü ümumilikdə 1249.7 xal toplayıb.

Bakı mundialının yaddaqalan atletlərindən biri də 19 yaşlı çinli Qiongyu Janq olub. Gənc olmasına baxmayaraq, böyüklərlə mübarizəyə qatılan Janq, 50 metr məsafəyə 3 mövqedən atəş üzrə qadınlar arasında qızıl medal qazanmaqla yanşı 2 uğura imza atıb. Təsnifat mərhələsində dünya rekordu qıran gənc atıcı finalda da buna nail olub.

Təkrarlanan rekordların sayı isə daha çoxdur. Kişilər arasında 25 metr məsafəyə tapançadan cəld atəşaçma yarışlarında Çin komandası 1756 xal toplamaqla son rekorda çatıb.

Qadınlar arasında 25 metr məsafəyə tapancadan atəş açma yarışında Doren Vennekamp mümkün 40 xal toplamaqla rekordu təkrarlayıb.

300 metr məsafəyə uzanaraq atəş açma növündə qızıl medal qazanan 60 yaşlı Raymond Debeveç 3-cü dəfə dünya çempionu olmaqla yanaşı maksimum - 600 xal toplayaraq dünya rekordunu təkrarlayıb.

Stend atıcılığının səngər növündə qadınlardan ibarət İtaliya komandası rekord 354 xal toplayaraq dünya rekordunu təkrarlayıb.

Kişilərin dairəvi stend atıcılığında isə 2 idmançı bu uğura nail olub. ABŞ təmsilçisi Vinsnet Hankok və Misirli Azmi Mehelba mümkün 125 xalın hamısını toplamağı bacarıb.

Beynəlxalq Atıcılıq İdman Federasiyasının məlumatına görə, indiyədək atıcılıq üzrə heç bir dünya çempionatında bu qədər rekord qeydə alınmayıb.




# ŞAHMAT ÜZRƏ DÜNYA KUBOKU

***İyul ayının 29-u Bakıda şahmat üzrə Dünya Kubokunun açılış mərasimi keçirilib.***

Bakı Konqres Mərkəzində baş tutan tədbirdə gənclər və idman naziri Fərid Qayıbov, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviç, Azərbaycan Şahmat Federasiyasının prezidenti, FIDE-nin vitse-prezidenti Mahir Məmmədov, digər yerli federasiyaların rəsmiləri, şahmatçılar və qonaqlar iştirak ediblər.

Əvvəlcə səhnəyə şahmat xanaları gətirilib. Şahmat fiqurlarının formasında paltar geyinmiş personajların ifasında maraqlı səhnəcik təqdim olunub. Ardınca Dövlət Himni səsləndirilib. Bundan sonra Azərbaycanda şahmatın inkişafı və təbliğindən bəhs edən videoçarx nümayiş olunub. Açılış mərasimində çıxış edən Fərid Qayıbov 10-cu Dünya Kubokunun Bakıda təşkilinin təsadüfi olmadığını bildirib. O, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan olunduğunu diqqətə çatdırıb. Nazir şahmatın inkişafında dövlətin qayğısını xüsusi vurğulayıb. F.Qayıbov sonda iştirakçılara uğurlar arzulayaraq onların Bakıda səmərəli vaxt keçirəcəklərinə inamını ifadə edib.














Daha sonra FIDE-nin vitse-prezidenti Mahir Məmmədova söz verilib. Federasiya prezidenti Azərbaycanın əsl şahmat ölkəsi olduğunu söyləyib. O, ölkədə şahmatın dövlət siyasəti olduğunu qeyd edib. Azərbaycan qrosmeysterlərinin beynəlxalq yarışlardakı uğurlarından söz açan M.Məmmədov Dünya Kubokunda ölkəni 18 şahmatçının təmsil edəcəyini bildirib. O, Bakıdakı yarışın ədalətli və barışmaz mübarizə ilə yadda qalacağını əlavə edib. M.Məmmədov göstərilən etimada görə növbəti dəfə Beynəlxalq Şahmat Federasiyasının rəhbərliyinə təşəkkür edib.

FIDE prezidenti isə öz növbəsində başda Prezident İlham Əliyev olmaqla təşkilatçı ölkəyə belə bir yarışın keçirilməsi üçün minnətdarlığını bildirib. Yaradılan şəraitdən razılıq edən rusiyalı funksioner iştirakçılara uğurlar arzulayıb. Dvorkoviç Dünya Kubokunu açıq elan etdikdən sonra Beynəlxalq Şahmat Federasiyasının rəsmi himni səsləndirilib.

Sonda isə yarışın püşkü atılıb və ilk turda üz-üzə gələcək şahmatçılar müəyyənləşib.





İyul ayının 30-u şahmat üzrə Dünya Kubokuna start verilib. Birinci raundun partiyalarında ilk gedişi gənclər və idman naziri Fərid Qayıbov və Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç edib. Gərgin mübarizə əzmində keçən turnirin qalibləri avqust ayının 24-ü müəyyənləşib. Təəssüf ki, şahmatçılarımızdan heç biri fəxri üçlükdə yer tuta bilməyib. Təmsilçilərimizdən yalnız Nicat Abasovun çıxışı azarkeşləri sevindirib. Üçüncü yer uğrunda görüşdə ABŞ təmsilçisi Fabiano Karuanaya uduzan Azərbaycan şahmatçısı bürünc medalı əldən buraxaraq dördüncü yerlə kifayətlənib.

Dünya Kubokunun qalibi titu-










luna isə beşqat dünya çempionu, norveçli Maqnus Karlsen sahib çıxıb. O, finalda hindistanlı Rameşbaba Praqnanandxanı məğlub edərək, karyerasında ilk dəfə dünya kubokunu qazanıb.












Bakıda Şahmat üzrə Dünya Kubokunun bağlanış mərasimi olub, qaliblər mükafatlandırılıb

Avqustun 24-də Bakıda Şahmat üzrə Dünya Kubokunun bağlanış və mükafatlandırma mərasimi keçirilib. Tədbirdə gənclər və idman naziri Fərid Qayıbov, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviç, Azərbaycan Şahmat Federasiyasının (AŞF) prezidenti Mahir Məmmədov, Azərbaycan Respublikasının müdafiə sənayesi naziri, Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev, şahmatçılar və digər qonaqlar iştirak ediblər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himni və FIDE-nin rəsmi himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra monitorda yarışa həsr olunmuş videoçarx nümayiş etdirilib.

Ardınca rəsmi qonaqlar çıxış ediblər. Əvvəlcə söz gənclər və idman naziri Fərid Qayıbova verilib. Hər kəsi salamlayan nazir Dünya Kubokunun yüksək səviyyədə təşkil olunduğunu bildirib. Nicat Abasovun öz nəticələri ilə azarkeşlərimizi sevindirdiyini vurğulayan Fərid Qayıbov yarışa böyük maraq olduğunu əlavə edib. Fərid Qayıbov mükafatçıları Bakıda qazandıqları uğur müna-



sibətilə təbrik edib. O, belə mötəbər yarışı Azərbaycana həvalə etdiyi üçün FIDE rəhbərliyinə minnətdarlığını bildirib. Fərid Qayıbov yarışın yüksək səviyyədə təşkilinə görə Mahir Məmmədova, həmçinin Dünya Kubokunu işıqlandıran media nümayəndələrinə təşəkkür edib.

Tədbirdə çıxış edən Mahir Məmmədov Bakıda keçirilən Dünya Kubokunun unudulmaz mübarizə ilə yadda qaldığını bildirib. Yarışa böyük tamaşaçı marağının olduğunu deyən federasiya prezidenti Nicat Abasovun uğurlu çıxışını xüsusi vurğulayıb. Mahir Məmmədov Arkadi Dvorkoviç və komandasına, Gənclər və İdman Nazirliyinə, eləcə də azarkeşlərə təşəkkür edib. O qeyd edib ki, şahmatın inkişafı üçün gələcəkdə də bu təşkilatlarla əməkdaşlıq davam etdiriləcək. FIDE-nin vitse-prezidenti Dünya Kubokunun qalibi Maqnus Karlseni tarixi qələbə münasibətilə təbrik edib. O, iddiaçılar turnirində çıxış edəcək şahmatçılara uğurlar arzulayıb.

Sonra səhnəyə FIDE prezidenti Arkadi Dvorkoviç dəvət olunub. Funksioner yarışın ərsəyə gəlməsində rolu olan hər kəsə, xüsusilə cənab Prezident İlham Əliyevə minnətdarlığını bildirib. O deyib ki, Dünya Kubokunun Bakıda keçirilməsi gələcəkdə ölkədə şahmatın daha da inkişafına təkan verəcək. Arkadi Dvorkoviç Azərbaycan paytaxtında əsl şahmat şousunun gerçəkləşdiyini vurğulayıb. O, hər kəsin Bakıdakı yarışdan xoş təəssüratlarla ayrıldığını söyləyib.

Ardınca qaliblərə mükafatlar təqdim olunub. ABŞ təmsilçisi Fabiano Karuanaya bürünc, hindistanlı Rameşbabu Praqqnanandxa gümüş, norveçli Maqnus Karlsenə isə qızıl medal və Dünya Kuboku verilib. Mükafatları Mədət Quliyev, Mahir Məmmədov, Arkadi Dvorkoviç və Fərid Qayıbov təqdim ediblər. Dördüncü yeri tutan Nicat Abasov isə xüsusi mükafata layiq görülüb.

Daha sonra qalib şahmatçı Karlsenin şərəfinə Norveçin Dövlət Himni səsləndirilib.

Sonda Arkadi Dvorkoviç şahmat üzrə Dünya Kubokunu rəsmən bağlı elan edib.

## Maqnus Karlsen: "Bakıya qalib olmaq üçün gəlmişdim"

Klassik şahmata münasibətim hamıya məlumdur. "Norway Chess" turnirindən sonra Bakıya gəlmək barədə qərar qəbul etdim. İlk günlərdə çətin hisslər yaşayırdım. Dünya Kubokunda sona qədər irəliləmək əsas hədəfim idi. Bakıya qalib olmaq üçün gəlmişdim. Dünya Kubokunu qazandığım üçün xoşbəxtəm. Nəhayət adımı bu yarışın tarixinə yazdırdım.

Beynəlxalq Şahmat Federasiyası qaydaları yenidən nəzərdən keçirməlidir. Klassik şahmatda islahat olmalıdır. Oyuna verilən zaman azaldılarsa, daha maraqlı mübarizə izləmək mümkündür. Qəti qərar söyləmək üçün müzakirələr lazımdır. Qaydalar dəyişərsə, yenidən çempionluq uğrunda mübarizəyə qayıtmaq ehtimalım var.







## Nicat Abasov: "Dünya Kubokundakı təcrübə qarşıdakı yarışlarda mənə kömək edəcək"

Artıq 25 gündür ki, intensiv iş rejimindəyik. Heç vaxt belə rejimdə mübarizə aparmamışam. 28 yaşım olmasına baxmayaraq karyeramda ilk dəfə bu cür yarışda yarımfinaladək irəliləmişəm. Son günlərdə güc tükənmişdi. Amma yarışa gələn şahmat həvəskarlarının dəstəyi yüksək motivasiyada mübarizə aparmağa kömək edirdi. Güc tükəndiyindən son görüşlərdə istədiyim oyunu göstərə bilmədim. Bununla belə, böyük təcrübə qazandım. İnanıram ki, bu təcrübə qarşıdakı yarışlarda layiqli nəticələr qazanmağa kömək edəcək.

Daim dəstək olan azarkeşlərə, şahmat ictimaiyyətinə çox sağ ol deyirəm. İlk dəfə belə gözəl həyəcanı hiss etdim. Növbəti yarışlarda da hamını sevindirmək üçün mübarizə aparacağam.




# II MDB OYUNLARINDAN 10 QIZIL, 17 GÜMÜŞ, 35 BÜRÜNC MEDAL

***Avqustun 4-15-i tarixlərində Belarusda II MDB Oyunları keçirilib. Yarışda Azərbaycanı 16 idman növündə 177 idmançı təmsil edib.***

Azərbaycan millisi II MDB Oyunlarını 62 medalla başa vurub. İdmançılarımız 10 qızıl, 17 gümüş, 35 bürünc medal əldə ediblər. II MDB Oyunlarında komanda hesabında ən yaxşı nəticəni 288 medalla (149 qızıl, 89 gümüş, 50 bürünc) Rusiya yığması göstərib. Belarus millisi 236 medalla (48 qızıl, 78 gümüş, 110 bürünc) ikinci, Özbəkistan isə 106 medalla (28 qızıl, 25 gümüş, 53 bürünc) üçüncü yeri tutub.

Qeyd edək ki, III MDB Oyunları 2025-ci ildə Azərbaycanın ən böyük ikinci şəhəri olan Gəncədə keçiriləcək.




АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА
II ИГРЫ СТРАН СНГ
БЕЛАРУСЬ
2023
II ИГРЫ СТРАН СНГ
БЕЛАРУСЬ
2023



## GİMNASTİKA

II MDB Oyunlarında ilkin yarışlar bədii gimnastika növü ilə başlayıb. Azərbaycan nümayəndə heyətinin tərkibində ölkəmizi bədii gimnastika üzrə yığma komandamızın üzvləri, fərdi proqramda böyüklər arasında İlona Zeynalova, Kamila Qafarova, Kamilla Seyidzadə və gənclərdən ibarət qrup hərəkətləri komandamızın üzvləri Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərova təmsil edib.

Avropa çempionatının ikiqat bürünc (çoxnövçülük, 5 top), dünya çempionatının üçqat bürünc (çoxnövçülük, 5 ip, 5 top) mükafatçıları olan qrup yığmamız bu dəfə də etimadı doğruldub. Belə ki, yarışın ilk günü 5 iplə hərəkətlərin icrasında finala vəsiqə qazanan təmsilçilərimiz növbəti gün 5 topla həlledici mərhələyə yüksəlməklə çoxnövçülük proqramında bürünc medalı komandamız üçün təmin ediblər. Komandamızın ayrı-alətlər üzrə də çıxışı uğurlu olub. Gimnastlarımız həm 5 top, həm də 5 iplə hərəkətlərin icrasında fəxri kürsünün üçüncü pilləsində yer alıblar.

Fərdi proqramda çıxış edən bədii gimnastlarımız Kamilla Seyidzadə top və halqa, Kamila Qafarova və İlona Zeynalova isə lentlə hərəkətlərin icrasında finalda mübarizə aparıblar.

Ümumi komanda hesabında ölkəmiz fərdi proqramda çıxışların nəticəsinə əsasən 4-cü pillədə qərarlaşıb.







# MDB



## CÜDO

Növbəti medallar komandamızın aktivinə cüdoçularımızdan gəldi. Azərbaycan II MDB Oyunlarında 16 çəki dərəcəsində 15 oğlan və 12 qız cüdoçu ilə təmsil olunurdu. Avqustun 5-də qızlar və oğlanlar arasında 8 çəki dərəcəsində 16 cüdoçumuz medallar uğrunda mübarizə apardı. Bu mübarizədə Azərbaycan cüdoçuları 3 qızıl və 2 bürünc medal qazandılar. Qızıl medallara Nihad Məmişov (50 kq), Ayxan Mirzəzadə (55 kq), və Cəsur İbadlı (66 kq), bürünc medallara isə Xədicə Abdullayeva (40 kq) və Aytən Verdiyeva (52 kq) sevindi.

Avqustun 6-sı Azərbaycan cüdoçuları daha 3 medal qazanmağı bacardılar. Qızların mübarizəsində Nilgün Rzayeva (57 kq) və Zeynəbxanım Əsədova (70 kq), oğlanlardan isə Mehdi Abbasov (73 kq) üçüncü yerdə qərarlaşdılar.



## ATICILIQ

Bir gün sonra atıcımız Leyli Əliyeva oyunların qızıl medalını qazanaraq azarkeşləri sevindirib. İdmançımız pnevmatik tapançadan 10 metr məsafəyə atəş növündə Ermənistan və Rusiya idmançıları ilə mübarizədə üstünlük əldə edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Məlumat üçün bildirək ki, atıcımız Leyli Əliyeva iyul ayında Koreyanın Çanqvon şəhərində keçirilən Gənclər arasında dünya çempionatında bürünc medal qazanıb.






## GÜLƏŞ

Azərbaycanın sərbəst güləş millisi II MDB Oyunlarını 6 medalla başa vurub.

Komandamız yarışda 2 qızıl, 3 gümüş, 1 bürünc medal əldə edib. Cəbrayıl Qadjiyev (74 kq) və Arseniy Djioyev (86 kq) 1-ci, Ayxan Abdullazadə (61 kq), Murad Yevloyev (70 kq) və Abdulcəlil Şabanov (92 kq) 2-ci, Rəşid Babazadə (65 kq) isə üçüncü yeri tutublar.

Qeyd edək ki, sərbəst güləş yığmamız II MDB Oyunlarına məşqçilər Nazim Əlicanov, Əşrəf Əliyev və Xəqan Süleymanovun rəhbərliyi altında 9 nəfərlə yollanmışdı.

## AĞIR ATLETİKA

Qrodno şəhərindəki Buz İdman Sarayının yarış zalında ağır atletika üzrə yarışlarda 150-dən çox idmançı medallar uğrunda mübarizə aparırdı.

Avqustun 9-u yarışa qatılan Azərbaycan ağırlıqqaldıranı Dadaş Dadaşbəylinin də çıxışı uğurlu alınıb. İdmançımız 109 kiloqram çəki dərəcəsində toplam 393 kiloqram (177+216) nəticə ilə bütün rəqiblərini üstələyərək II MDB Oyunlarının qalibi olub.

Eyni çəkidə mübarizəyə qoşulan Əli Şükürlü isə toplam 300 kiloqram (130+170) nəticə ilə yekun sıralamada 5-ci yeri tutub.







## BOKS

Avqustun 13-ü Belarusda keçirilən II MDB Oyunlarında boks yarışlarına yekun vurulub. Milli komandamız mötəbər turniri 10 medalla başa vurub. Komandamızın heyətində Aynur Mikayılova (54 kq), Məhəmmədəli Qasımzadə (60 kq), Ziya Həsənov (71 kq) və Fərhad Şeydayev (75 kq) gümüş medallara sahib olub. Ömər Aslanlı (54 kq), Aslan Quliyev (63,5 kq), Lalə Mədətova (48 kq), Aysu İsmayılova (50 kq), Nərmin Əlizadə (52 kq) və Qızbəs İsgəndər (60 kq) isə milimizin aktivinə bürünc medallar yazdırıb. Yığmamız bu nəticə ilə komanda hesabında beşinci yeri tutub.

Bununla da I MDB Oyunları ilə müqayisədə medalların sayında ikiqat yüksəliş qeydə alınıb. 2 il öncə Rusiyanın Kazan şəhərində keçirilən I MDB Oyunlarında isə boksçularımızın qazancı 5 "bürünc" olub. Belarusda, həmçinin 4 gümüş medal əldə etməklə, mükafatların əyarında da ilk yaşanıb.

## KARATE

Belarusun paytaxtı Minskdə keçirilmiş II MDB Oyunlarında medal qazanan Azərbaycan karateçiləri arasında “Arpaçay” karate klubunun üzvləri də var.

Yarışda fərqlənən Ramil Baxşəliyev, Roman Heydərov, Zəhra Qurbanzadə və Hüseyn Məmmədli məhz bu klubun təmsilçiləridir.

Yarışda Baxşəliyev və Heydərov qızıl, Qurbanzadə və Məmmədli isə bürünc medal əldə ediblər.












## MUAY-TAY

II MDB Oyunlarının son günlərində Muay-tay idmançılarımız komandamızın “daxılına” daha 9 medal əlavə etdilər. Yarışlarda iştirak edən 11 döyüşçümüzdən 7-si bürünc, 2-si isə gümüş medal qazanmağı bacardı. Bürünc medallarla Nihat Şoranov (51 kq), Fuad Quliyev (54 kq), İsgəndər İsgəndərov (57 kq), Aysu devrişova (60 kq), Əli Əliyev (63.5 kq), Emili Rzayeva (67 kq) və Murad Səfərəliyev (71 kq) təltif olundu.

Hakimlərin səhvi nəticəsində qızıl medalları gümüşə dəyişən isə Xəyal Əliyev (60 kq) və Səməndər İsgəndərov (86 kq) oldu.

## SAMBO

II MDB Oyunlarının son medalını isə komandamıza samboçu Rəsul Aydəmirov qazandı. 98 kq-da çıxış edən idmançımız fəxri kürsünün üçüncü pilləsində qərarlaşdı. Xatırladaq ki, Rəsulun qazandığı bürünc medal oyunlara qatılan 7 samboçumuzun yeganə mükafatı oldu.









*Sentyabr ayının 4-ü Belçika, Estoniya, Almaniya və İtaliyanın birgə ev sahibliyi etdiyi qadınlar arasında təşkil olunan Avropa çempionatına yekun vurulub. Türkiyənin qadın voleybolçuları 33-cü Avropa çempionatının qalibi olublar.*

# TÜRKİYƏ KOMANDASI AVROPA ÇEMPİONU!



Türkiyə milli komandası Brüsseldə keçirilən final qarşılaşmasında Serbiya yığmasını ümumi hesabda 3:2 məğlub edərək, tarixində ilk dəfə Avropa çempionatının qızıl medalına sahib olub.




33-cü Avropa çempionatında 24 komanda 4 qrupda mübarizə aparıb. C qrupunda yer alan qardaş ölkənin voleybolçuları Almaniyada oynadığı qrup matçlarının beşində də qalib gələrək səkkizdəbir finala vəsiqə qazanıblar. Türkiyə seçməsi səkkizdəbir finalda Belçikanı (3:1), dörddəbir finalda Polşanı (3:0) məğlubiyyətə uğradıb. Yarımfinalda İtaliyaya 3:2 hesabı ilə qalib gələn Türkiyə seçməsi tarixində üçüncü dəfə finalda iştirak hüququ qazanıb.






Final görüşündə Türkiyə və Serbiya komandaları üz-üzə gəlib. Gərgin idman mübarizəsi şəraitində keçən oyunun birinci seti serbiyalıların 27:25 hesablı üstünlüyü ilə başa çatıb. İkinci setdə daha üstün oyun nümayiş etdirən Türkiyə voleybolçuları 25:21 hesabı ilə qalib gələrək, ümumi hesabı bərabərləşdiriblər - 1:1. Qarşılaşmanın üçüncü setinə Türkiyə idmançıları üstün başlasalar da, yüksək əzmkarlıq göstərən serbiyalılar ardıcıl bir neçə xal qazanaraq, seti öz xe-






yirlərinə başa vurublar - 25:22. Ümumi hesabda geri qalan Türkiyə voleybolçuları toparlanaraq, gərgin keçən dördüncü seti eyni hesabla (25:22) bitirərək hesabı bərabərləşdirə biliblər - 2:2. Qalib isə beşinci setdə müəyyənləşib. Sonuncu setdə qələbə qazanan (15:13) Türkiyə millisi tarixində ilk dəfə çempion adını qazanıb.

Qeyd edək ki, Türkiyə millisi daha əvvəl iki dəfə - 2003-cü və 2019-cu illərdə Avropa çempionatının finalında iştirak hüququ qazansa da, həmin






görüşlərdə uduzaraq gümüş medallarla kifayətlənməli olub. Türkiyə sonuncu finalda məhz Serbiyaya uduzub. Serbiya isə üç dəfə - 2011-ci, 2017-ci və 2019-cu illərdə Avropa, 2018-ci və 2022-ci illərdə dünya çempionu olub.

Xatırladaq ki, 2017-ci ildə qadın voleybolçular arasında 30-cu Avropa çempionatına Azərbaycan və Gürcüstan birlikdə ev sahibliyi edib.

***Etibar Hüseynov***





# BADMİNTONÇULARIMIZDAN 3 MEDAL

***Azərbaycan badmintonçuları Tacikistanda keçirilən beynəlxalq turnirdə 1 gümüş və 2 bürünc medal qazanıblar.***

Era Maftuha-Həcər Nuriyeva tandemi qadın badmintonçuların qoşa yarışında gümüş medal qazanıb. İlk görüşdə Qazaxıstanı təmsil edən rəqibləri korta çıxmadığından birbaşa yarımfinala vəsiqə qazanan badmintonçularımız, bu mərhələdə Özbəkistandan olan həmkarlarına qalib gələrək finala yüksəlib. Era və Həcər qızıl medal uğrunda keçirilən qarşılaşmada Rutaparna Panda-Svetaparna Panda qoşasına iki setin yekununda məğlub olublar.

Badmintonçularımız Edi Reski Dviçayo və Keişa Fatimə Zəhra isə Tacikistanın Düşənbə şəhə-






rində keçirilən "International" seriyalı beynəlxalq turnirdə 3-cü olublar.

Kişi badmintonçuların şəxsi yarışında mübarizəyə 1/16 finaldan başlayan Edi yarımfinala gedən yolda Qazaxıstan, Şri-Lanka və Hindistandan olan rəqiblərinə qalib gələrək ən güclü 4-lüyə yüksəlib. Edi finalın bir addımlığında Vyetnam badmintonçusu Le Duc Phata 0:2 hesabı ilə uduzub.

Eyni nəticəyə Keişa Fatimə Zəhra da imza atıb. Belə ki, qadın badmintonçuların şəxsi yarışında Kipr və Misir badmintonçularını mübarizədən kənarlaşdıran Keişa finala yüksəlmək uğrunda keçirilən görüşdə hindistanlı Anupama Upadhyaya 0:2 hesabı ilə məğlub olub.



# GÜLƏŞÇİLƏRİMİZDƏN 9 MEDAL



***İyulun 31-i Polşanın paytaxtı Varşavada sərbəst və qadın güləşi üzrə keçirilən ənənəvi "Poland Open" beynəlxalq turnirinə yekun vurulub.***

Azərbaycan pəhləvanlarının turnirdə çıxışları uğurlu alınıb. Təmsilçilərimiz yarışda 3 qızıl, 3 gümüş və 3 bürünc medal qazanıblar. Qızıl medalları komandamızın aktivinə 74 kq-da final görüşündə öz komanda yoldaşı Cəbrayıl Hacıyevə xal prinsipi ilə qalib gələn Turan Bayramov, 92 kq-da çıxış edən Osman Nurmaqomedov və qadın yığmamızın ən titullu güləşçisi Mariya Stadnik yazdırıb. Gümüş medalları 70 kq-da Maqomed-Başir Xaniyev, 74 kq-da Cəbrayıl Hacıyev və ən ağır çəkili pəhləvanımız, 125 kq-da çıxış edən Georgi Meşvildişvili qazanıb. Turnirin bürünc medallarına isə Əliabbas Rzazadə (61 kq), Hacı Əliyev (65 kq) və Hacımurad Hacıyev (74 kq) sahib çıxıb.

Turnirin ən maraqlı məqamlarından biri 74 kq-da güləşən




iki pəhləvanımızın final görüşündə üz-üzə gəlməsi olub. Onu da qeyd edək ki, bu çəkidə qızıl medala sahib çıxan Turan Bayramov iki komanda yoldaşını, əvvəlcə Hacımurad Hacıyevə, sonra isə Cəbrayıl Hacıyevə qalib gəlib.

### 61 kq

Əliabbas Rzazadə amerikalı Aaron Qaretlə (11:10) argentinalı Herman Almendraya (tuş) qalib gəlib. Ancaq üçüncü görüşdə hakimlərin mübahisəli qərarı ilə ABŞ-ın digər təmsilçisi Austin Desantoya 3:4 hesabı ilə məğlub olub. Gürcüstanlı Ramaz Turmanidzeni (4:0) üstələyən Əliabbas bürünc medala sahib çıxıb.

### 65 kq

Hacı Əliyev polşalı Kriştof Bienkovski (5:1) və gürcüstanlı Georgi Şoniyadan (4:1) güclü olsa da, amerikalı Maykl Alirezlə bacarmayıb - 0:8. Titullu pəhləvanımız israilli Coşua Finesilverə "tuş"la qalib gələrək turniri üçüncü pillədə başa vurub.

### 70 kq

Maqomed-Başir Xaniyev gürcüstanlı Sandro Sardanaşvili (11:0) və macarıtanlı Daniel Antal (10:2) üzərində inamlı qələbələr qazanaraq finala vəsiqə qazanıb. Həlledici görüşdə amerikalı Duqlas Veberə 2:6 hesabı ilə məğlub olan Xaniyev gümüş medalla kifayətlənib.

### 74 kq

Turan Bayramov ilk 2 görüşdə yunanıstanlı Georgios Kuqiumtsidis (5:1) və polşalı Şimon Voytkovskiyə (tuş), Xadjimurad Qadjiyev isə gürcüstanlı Luka Çxitunidzeylə (8:1) isveçrəli Tobias Portmana (7:1) qalib gəlib. Üçüncü mərhələdə milli üzvləri bir-biri ilə qarşılaşıb. Turan Xadjimurad üzərində inamlı qələbə qazanaraq (9:1) finala yüksəlib.

Digər səbətdə yer alan Cəbrayıl Hacıyev bolqarıstanlı Ali Paşa

# GÜLƏŞ










Umarpaşayev (10:10), polşalı Kamil Ribiçki (9:0) və Bolqarıstanın digər təmsilçisi Ramazan Ramazanovu (5:4) məyus edərək adını finala yazdırıb.

Yunanıstanlı Georgios Kuqiumtsidis xalçaya çıxmadığı üçün Hacımurad üçüncü yeri tutub. Azərbaycan finalı isə gözlənildiyi kimi, gərgin mübarizə şəraitində keçib. Cəbrayıla sonuncu xal prinsipinə əsasən (2:2) qalib gələn Turan Polşada çempion olub.





















# DÜNYA ÇEMPİONATINDAN 5 MEDAL




***Avqust ayının 6-si İngiltərənin Mançester şəhərində başa çatan dünya çempionatını Azərbaycan paraüzgüçüləri 5 medalla başa vurublar. Mundialda üç idmançı ilə təmsil olunan milli 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıb.***

# PARAÜZGÜÇÜLÜK




Roman Saley 100 m məsafəyə sərbəst üsulla üzməkdə qızıl, eyni məsafəyə arxasıüstə üzməkdə gümüş, 50 m məsafəyə sərbəst və 100 m məsafəyə "butterfly" üsulla üzməkdə bürünc mükafata yiyələnib. Vəli İsrafilov isə 100 m məsafəyə brass növündə dünya çempionu olub.

Eyni zamanda, Roman Saley və Vəli İsrafilov Paris-2024 XVII Yay Paralimpiya Oyunlarına birbaşa lisenziya qazanıblar.

## Roman Saley

**Paraüzgüçülük üzrə dünya çempionu**

"İngiltərənin Mançester şəhərində çıxışımız çox yaxşı alındı. Yarışda dünyanın bir çox ölkələrindən idmançılar iştirak edirdilər. Bunu biz bilirdik və yarışlara çox ciddi hazırlaşmışdıq. Təbii ki, həyəcanlı idik. Ancaq şükürlər olsun ki, hər şey yaxşı alındı. Çəkdiyimiz əziyyətimizin bəhrəsini gördük. Çox yaxşı nəticə göstərdik və bizə olan ümidləri doğrultduq. Məşqmilərimizə və federasiya rəhbərliyinə bizə göstərdikləri dəstəyə görə təşəkkür edirəm".






## Vəli İsrafilov

**Paraüzgüçülük üzrə dünya çempionu**

"Bir ildir ki, İngiltərənin Mançester şəhərində keçirilən dünya çempionatına hazırlaşırdıq. Çox şadam ki, zəhmətimiz hədər olmadı. Həm mən, həm Roman qızıl medal qazanaraq, üçrəngli bayrağımızı ucaltdıq. Qazandığımız medallar bizə yaradılan şəraitin və gərgin məşqlərin bəhrəsidir. Biz "Su İdman Sarayı"nda məşq edirik. Bu saray isə Avropanın ən yaxşı 5 hovuzundan biridir. Bizlərə dəstəyini əsirgəməyən Prezident İlham Əliyev başda olmaqla hər kəsə təşəkkür edirəm.

Dünya çempionatında biz Paris-2024 XVII Yay Paralimpiya Oyunlarına lisenziya da qazandıq. Ümidvaram ki, bu qalibiyyəti Parisdə də davam etdirəcəyik".



# ZAUR CƏFƏROV








***Zaur Cəfərov pauerliftinqin ən yüksək mükafatı olan "Elitar Üzüklə" təltif olunub. Bu yüksək mükafatı ona Avropa və Asiya Pauerliftinq Federasiyasının prezidenti (WPC-WPO), (WPSO) Pauerliftinq üzrə Ümumdünya İdman Təşkilatının rəhbəri Yuri Ustinov (WPSO) Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən Qran-Pri turnirində təqdim edib. "Elitar Üzük" göstərilən ən yüksək nəticəyə görə verilən mükafatdır. Zaur Cəfərov Azərbaycan pauerliftinq tarixində "Elitar Üzüklə" təltif olunan ilk mükafatçıdır.***

Qeyd edək ki, avqustun 19-20-də Rusiyanın paytaxtı Moskva şəhərində pauerliftinq üzrə Qran-Pri turniri keçirilib. İki gün davam edən turnirdə Qazaxıstan, Gürcüstan, Özbəkistan, Belarus, Monqolustan, Rusiya, Hindistan, Türkiyə və digər ölkələrdən 300-ə yaxın idmançı birincilik uğrunda mübarizə aparıb. Yarışda baş hakimlik edən Bey-

# ƏN YÜKSƏK MÜKAFATINI QAZANDI!



nəlxalq dərəcəli hakim Zaur Cəfərov, həmçinin AWPC versiyası üzrə bench press hərəkətində 125 kiloqram çəki dərəcəsində ölkəmizi layiqincə təmsil edib. İdmançımız 280 kiloqram nəticə ilə turnirin qalibi olub.

Turnir çərçivəsində iyunun 21-25-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilmiş pauerliftinq üzrə Açıq Avropa çempionatında 6 dəfə Dünya və 6 dəfə Avropa rekordunu yeniləmiş idmançımız Zaur Cəfərova həmən yarışın rekord sertifikatları təqdim edilib.

Əməkdar idman ustası, Beynəlxalq dərəcəli hakim və idman ustası Zaur Cəfərov dopinq kontrol divizionunda iki dəfə "Elitar idmançı" tituluna layiq görülüb. O, dopinq kontrol divizionlarında dünya və Avropa rekordçusudur. Dünya kubokunun sahibi olan idmançı altı dəfə Dünya və Avropa çempionu, mütləq dünya və Avropa çempionu, 9 dəfə respublika çempionu, Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnirin üççqat qalibi və iki dəfə mütləq çempionudur.





# HƏNDBOL ÜZRƏ AVROPA ÇEMPİONATI





***Avqustun 5-də Bakı İdman Sarayında 17 yaşadək qızlar arasında Bakıda keçirilən həndbol üzrə Avropa çempionatının açılış mərasimi baş tutub.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Avropa çempionatında iştirak edən ölkələrin bayraqları rəqqaslar tərəfindən müxtəlif rəqs nümunələri ilə nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, dövlətimizin idmana göstərdiyi diqqət və qayğıdan söz açaraq iştirakçılara uğurlar arzulayıb.

Daha sonra Azərbaycan Həndbol Federasiyasının vitse-prezidenti Orxan Abbasov çıxış edib. Azərbaycanın son illərdə bir çox yarışlara ev sahibliyi etdiyini vurğulayan Abbasov







bildirib: "Bu gün həndbol üzrə Avropa çempionatına dünyanın ən gözəl şəhərlərdən biri olan Bakı ev sahibliyi edir. Bütün işlərdə bizə dəstək olan Prezident İlham Əliyevə, birinci xanım Mehriban xanım Əliyevaya təşəkkürlərimizi bildiririk".

Tədbir bədii hissə ilə davam edib.

Təəssüf ki, komandamız mükafatçılar sırasında yer tuta bilməyib. Yarışın qalibi İspaniya - Sloveniya görüşündə müəyyənləşib. Maraqlı idman mübarizəsi şəraitində keçən oyunda ispaniyalılar daha inamlı təsir bağışlayıblar. Bunun məntiqi nəticəsi kimi 28:20 hesabı ilə qalib gələn İspaniya millisi Avropa çempionu adına layiq görülüb.

Final matçından sonra mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə Avropa Həndbol Federasiyasının nümayəndəsi




Federasiyasının nümayəndələrinə hədiyyələr verildikdən sonra qalib komandaların üzvlərinə medallar təqdim olunub.

Nəticələrə əsasən İspaniya komandası qızıl, Sloveniya kollektivi gümüş, Litva həndbolçuları isə bürünc medallara layiq görülüb.

Medalları idmançılara Avropa Həndbol Federasiyasının nümayəndəsi Ştefan Lövqren, Azərbaycan Həndbol Federasiyasının vitse-prezidenti Orxan Abbasov və baş katib Yusif Ataкişiyev təqdim ediblər.

***Vidadi Baxşiyev***

Ştefan Lövqren çıxış edərək, Bakıda keçirilən qitə çempionatının yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırıb. Təşkilatçılığa görə Azərbaycan Həndbol Federasiyasının fəaliyyətini yüksək qiymətləndirən Ştefan Lövqren İspaniyanı çempion olması münasibətilə təbrik edib. O, digər komandalara da göstərdiyi oyuna görə təşəkkür edib.

Çempionatın ən yaxşı oyunçularına, həmçinin yarışın hakimlərinə və Avropa Həndbol Federasiyasının nümayəndələrinə, yüksək səviyyədə təşkilatçılığa görə Azərbaycan Həndbol






# ƏLİ ŞÜKÜRLÜDƏN 1 QIZIL, 2 GÜMÜŞ




***Avqust ayının 2-də Rumıniyanın paytaxtı Buxarestdə yaşı 20 və 23-ə qədər olan gənclər arasında ağır atletika üzrə Avropa birinciliyinə start verilib.***

Yarışda 34 ölkədən 394 atlet (187 qadın və 207 kişi) iştirak edib. Medallar uğrunda mübarizəyə Azərbaycan yığma komandasının üzvləri də qoşulublar.

Bu gün onlardan son olaraq Əli Şükürlü körpücük üzərinə çıxıb. O, yaşı 20-yə qədər olan atletlər arasında 109 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdən qaldırma hərəkətində 160 kq-ni ram edib və bu hərəkətdə Avropa birinciliyinin gümüş medalını qazanıb. Təkanla qaldırma hərəkətində idmançımızın çıxışı daha uğurlu alınıb. O, 195 kq-ni qaldırıb və bu hərəkətdə Avropa birinciliyinin qızıl medalına sahib çıxıb.

Toplam 355 kq (160+195) nəticə göstərən Əli yekun sıralamada 2-ci yeri tutaraq gümüş medala layiq görülüb.









# 40-CI DÜNYA ÇEMPİONATINDAN OLİMPİYA LİSENZİYASI

***Avqustun 23-dən 27-dək dünyanın ən güclü bədii gimnastları İspaniyanın Valensiya şəhərində keçirilən 40-cı dünya çempionatında bir araya gəldilər. Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan yarışda ölkəmizi fərdi gimnastlar, Zöhrə Ağamirova, İlona Zeynalova, Kamila Qafarova, eləcə də qrup hərəkətləri üzrə yığma komandamızın üzvləri - Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan təmsil etdi.***



Dünya çempionatı çoxnövçülük üzrə təsnifat mərhələsinin yekununa əsasən fərdi proqramda ilk 14, qrup hərəkətləri proqramında isə ilk 5 yer üçün Paris Olimpiadasına lisenziya qazandırdı.

Qeyd edək ki, bu siyahıya hər iki proqramda ötənilki dünya çempionatında ilk üçlükdə qərarlaşaraq Paris-2024-ə vəsiqəni təmin etmiş gimnastlar və qrup komandaları daxil deyildi.

Çempionatın ilk iki günü gimnastikanın ən zərif növünün nümayəndələri təsnifat mərhələsində fərdi proqramda halqa, top, gürzlər və lentlə xalça üzərində çıxışlarını nümayiş etdirdilər. Fərdi çoxnövçülük üzrə təsnifat mərhələsinin yekununa əsasən yığma komandamızın üzvü, Avropa çempionatının bürünc mükafatçısı, Yay Universiadasının dördqat gümüş və bürünc medalçısı Zöhrə Ağamirova 12-ci pillədə (95.250 xal) qərarlaşaraq, Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya qazandı. İdmançımız bu nəticə ilə, həmçinin çoxnövçülük proqramında dünya çempionatının final mərhələsinə vəsiqəni özü üçün təmin etdi. Finalda gimnastımız 122.450 xalla 18-ci pillədə qərarlaşdı. Qeyd edək ki, bu, Paris-2024-ə gimnastika idman növü üzrə qazanılan ilk lisenziyadır. Xatırladaq ki, Zöhrə Ağa-

mirova 32-ci Tokio Yay Olimpiya Oyunlarında da ölkəmizi təmsil etmişdi. Bununla o, Azərbaycan gimnastika tarixində Olimpiya Oyunlarında bədii gimnastika üzrə fərdi proqramda iştirak etmiş ilk azərbaycanlı gimnast kimi adını tarixə yazdırmışdı.

Fərdi proqramda çıxış edən digər gimnastlarımız İlona Zeynalova və Kamila Qafarova üçün bu dünya çempionatı təcrübə xarakteri daşıyırdı. Yarışda İlona Zeynalova top, halqa və gürzlər, Kamila Qafarova isə lentlə proqramını təqdim etdi.

Avqustun 25-də qrup hərəkətləri üzrə yığma komandamız təsnifat mərhələsində çoxnövçülük (5 halqa, 3 lent və 2 top) proqramında mübarizəyə qoşuldu. Komandamızın üzvləri 63.900 xalla 9-cu pillədə qərarlaşdı. İdmançılarımız Olimpiya lisenziyasını əldə etməyə çox yaxın olsalar da, təəssüf ki, bu nəticə Olimpiya vəsiqəsini qazanmaq üçün kifayət etmədi. 3 lent və 2 topla hərəkətlərin icrasında 6-cı olan təmsilçilərimiz (32.200 xal) finala vəsiqəni özləri üçün təmin etdilər. Yarışın sonuncu günü keçirilən həlledici mərhələdə gimnastlarımız Yaponiya, Bolqarıstan və Meksika komandalarını qabaqlayaraq dünya çempionatını 5-ci pillədə (30.300) başa vurdular.

Qeyd edək ki, qarşıda idmançılarımızı daha bir lisenziya xarakterli yarış, Macarıstanın paytaxtı Budapeşt şəhərində keçiriləcək Avropa çempionatı gözləyir. İnanırıq ki, gimnastlarımız bu yarışda nəticələrini daha da yaxşılaşdıraraq, ölkəmizə gimnastika üzrə növbəti Olimpiya lisenziyasını qazandıracaqlar.





## *Zöhrə Ağamirova:*

“İdmanda ilk uğurum karyeramın zirvəsi hesab etdiyim Tokio olimpiadasında iştirakım olub. Olimpiya Oyunlarına qatılan ilk azərbaycanlı bədii gimnast kimi tarixə düşməyim məni çox sevindirmişdi. Tokio Olimpiadasından sonra bir daha bu cür nüfuzlu yarışa qatılacağıma ümid etmirdim. Lakin məşqçilərimin inamı məni daha da ruhlandırdı. Onların etimadını doğrultmağa qərar verdim və lisenziya qazanmağı qarşıma məqsəd qoydum. Bu yolda İspaniyadakı dünya çempionatı mənim üçün yaxşı fürsət oldu. Çıxışlarımı uğurla yerinə yetirərək finalçılar arasına düşdüm və 2024-cü ildə Fransanın paytaxtı Parisdə keçirilməsi nəzərdə tutulan Olimpiya Oyunlarına lisenziya əldə etdim. Tarixdə ilk azərbaycanlı bədii gimnast kimi ikinci dəfə Olimpiadada iştirak edəcəyəm. Bu mənim üzərimə düşən böyük məsuliyyətdir. Amma qürurlu və sevincliyəm. Ümid edirəm ki, uğurlu çıxışımla Azərbaycanı layiqincə təmsil edəcəyəm”.

# "BEŞİKTAŞ" TRİBUNASINDA - MƏDƏNİ, XOŞNİYYƏTLİ FANATLAR!

***Adətən futbol oyunlarını stadionda media bölümündən deyil, azarkeşlər arasından izləməyə üstünlük verirəm.***

"Neftçi" – "Beşiktaş" (1:3) qarşılaşmasında da "Qara qartallar"ın azarkeşi olan yaxşı dostlardan birinin dəvətilə "Beşiktaş" fanatlarının toplaşdığı sektorda idim.




Birinci hissədə "Beşiktaş"ın, ikinci hissədəsə "Neftçi"nin qapısının solundakı künc bayrağının ətrafında.

Boş yer görmədim, hətta biletdə göstərilən yerlərdə deyil, "kim harada istəyir otursun" prinsipi həyata keçirildiyindən, bu havasızlıqda sıxlıq da yaranmışdı.

Çoxu azərbaycanlılar idi – əsasən də, gənclər və yeniyetmələr.

Uşaqların yaşı, nə işlə məşğul olduqları ilə maraqlanmadım, əcəb də etdim, oyuna baxmağa getmişdim, jurnalistlik etməyə yox )

Demək olar, bir dəqiqə belə susmadılar.

90 dəqiqədən də çox ayaq üstə!

"Beşiktaş'ım benim biricik sevgilim söyle senden başka kimim var benim!

Seninle ağlarım seninle gülerim söyle senden başka kimim var benim!"

"Bu sene şampiyon görelim sizi, ölmeden mezara koymayın bizi!"

"Korkutmaz bizleri musalla taşı, ölümüne seviyoruz biz Beşiktaşı!" və sair və ilaxır...

Bu üzdən "Neftçi" azarkeşlərinin səsini, demək olar ki, eşitmədik, yalnız köynəklərini çıxardıqlarını gördük.

Bizim tərəfdəsə, istiyə baxmayaraq, soyunan yox idi.




Düzdür, bir dəfə ani sakitlik çökəndə meydan sahibi fanatlarının olduğu qarşı tərəfdən “Beşiktaş”, Beşiktaş” qışqırdıqlarını eşitdim, amma nə dediklərini tam anlamadım. Kimsə “Beşiktaş”ı söyürlər” dedi və “Neftçi”-nin adını bir quş-heyvan növü ilə yanaşı çəkdi, vəssalam.

Söyüş heç eşitmədim.

Əksinə rəqib qol vuranda alqışladılar, hakimin final fitindən sonra komanda meydandan çıxanda da “Neftçi”, “Neftçi” qışqırdılar.

Olduğum yerdən bir az aralıda fasilədə bir kişinin cavan oğlanla tutuşduğunu gördük, amma yanlarındakılar ayırdılar: dəqiq bilmədim, nə məsələdir, dedilər, kişi “Fenerbahçe”li imiş-nədir, sözləri çəp gəlib...

Hə, bir dəfə də fanatlar “Tullanmayan “Fener”lidir” deyib yerlərində atılıb-düşməyə başladılar.

Arada ortayaşlı provokatorlardan biri bir-iki dəfə “Galatasaray”ı söyün” deyə söz atsa da, əhəmiyyət verən olmadı. Nə dəxli də...

Oyunun 44-cü dəqiqəsində hamı “Şəhidlər ölməz, Vətən bölünməz!” qışqırmağa başladı.

Tribunaları tərk edəndə də: “Azərbaycan, Azərbaycan!”

Bir sözlə, mədəni, xoşniyyətli fanatlar!

***Rasim Mövsümzadə***






# KLASSİK AVTOMOBİLLƏR BAKI KÜLƏYİNƏ QARŞI

***Avqust ayının 26-sı Azərbaycan Avtomobil Federasiyası (AAF) və "Zhara Events"in təşkilatçılığı ilə Bakıda klassik avtomobillərin sərgisi keçirilib.***

Sərgidə avqustun 27-də keçiriləcək yürüş üçün qeydiyyatdan keçmiş klassik avtomobillər, eləcə də Heydər Əliyev Mərkəzində nümayiş etdirilən avtomobil sərgisinin eksponatları sırasında olan bəzi nəqliyyat vasitələri yer alıb. Ümumilikdə sərgidə 140-dan çox avtomobil nümayiş olunub.

Heydər Əliyev Mərkəzinin qarşısında təşkil olunan sərgidə unikallığı ilə seçilən avtomobil də yer alıb. Məlum olduğu kimi, dünya təcrübəsində nadir hallarda avtomobillərə fərqli





dekorativ kompozisiyalar quraşdırılaraq müxtəlif incəsənət nümunələri yaradılır. Azərbaycanda ilk dəfə avtomobil üzərində nəbati elementlərdən ibarət dekorativ kompozisiya məhz “Qaz-M21 Volqa” avtomobili üzərində yaradılıb. Bu, avtomobil üzərində quraşdırılan unikal dekorativ-tətbiqi sənət kompozisiyalarından biri hesab olunur.

Sərgidə 1983-cü ilədək istehsal olunmuş retro nəqliyyat vasitələri nümayiş etdirilib. Ən qədim avtomobil isə 1931-ci il istehsalı olan “Ford Model A” markalı maşın olub.










Sərgidə iştirak edən "Mercedes-Benz C-Class 170" avtomobilinin sürücüsü Azər Abıyev bildirib ki, bu avtomobil dünyada öz seriyasının birinci versiyasıdır. "2022-ci ildə Almaniyada keçirilən avtomobil sərgisindən almışam. Həftədə bir dəfə - yalnız bazar günləri istifadə edirəm. Bu avtomobildən Azərbaycanda bir dənədir", - deyə o əlavə edib.

"Harley-Davidson" markalı motosikletin sahibi Vladislav Vologin nəqliyyat vasitəsinin 1938-ci ilə məxsus olduğunu söyləyərək bildirib: "Bu, mənə babamdan qalıb. Hazırda çox az adam bundan istifadə edir".

Sərgiyə 1926-cı il istehsallı "Moskvich"i ilə qatılan Araz Kərimov isə nəqliyyat vasitəsini beş il əvvəl Polşadan gətirdiyini vurğulayıb. O deyib: "Avtomobili təxminən 1500 dollara almışam. Bu cür köhnə avtomobillərə uşaqlıqdan həvəsim var".

Qeyd edək ki, klassik avtomobillər avqustun 27-də Heydər Əliyev Mərkəzinin qarşısından start götürərək "Sea Breeze" istirahət mərkəzinədək yürüş ediblər.

Əlli kilometrdən çox məsafəni qət edərək "Sea Breeze" istirahət mərkəzinə çatacaq klassik avtomobillərin orada da sərgisi təşkil olunub. Tamaşaçılara, həmçinin tanınmış ifaçıların iştirakı ilə konsert proqramı da təqdim edilib.

Əyləncə proqramına müsabiqələrin keçirilməsi, müxtəlif nominasiyalarda hədiyyələrin təqdimatı da daxil olub.
















**VIP Sport**
**professional**

*Tofiq Bəhrəmov adına*
*Respublika Stadionu*
*Tel:   (+994 12) 564 86 23*
*Mob: (+994 55) 464 13 31*
**www.vipsport.az**


НОВИНКИ
с использованием натурального
цельного молока и сливок
ПРОДУКТ СООТВЕТСТВУЕТ СТАНДАРТУ
ГОСТ
31457-2012
ТАМОЖЕННОГО СОЮЗА
Русский
Холодъ
НАСТОЯЩИЙ
ПЛОМБИР
РУССКИЙ
ХОЛОД
БЕЗ РАСТИТЕЛЬНЫХ ЖИРОВ
ПЛОМБИР 100%
НА СЛИВКАХ
ЭКСПОРТИРУЕТСЯ
МИРОВЫЕ СТАНДАРТЫ
В ЕВРОСОЮЗ
В США
rusholod.ru



BOOOL
SÜTLÜ
Golf
MARAŞIM
INTERNATIONAL TASTE INSTITUTE
2019
BRUSSELS
ÜSTÜN
LEZZET
ÖDÜLÜ
Golf
MARAŞIM
sade
MARAŞ'TA
ÜRETİM
Golf
Tadını Çıkar!

**Global Human Resource Solutions**

*Global Solutions for Global Challenges*

# XİDMƏTLƏRİMİZ

- ✓Yüksək kvalifikasiyalı kadrların seçilməsi
- ✓Fəaliyyətin qiymətləndirilməsi
- ✓Təlim və inkişaf
- ✓İR Autsorsinq və Autstaffinq
- ✓İR prosedurların və qaydaların hazırlanması
- ✓Layihələrin idarəolunması
- ✓Əməyin ödənilməsi və mükafatlandırma
- ✓Miqrasiya məsələri və işgüzar səfərlərin təşkili



+994 55 201 91 61

info@globalhrs.org

www.globalhrs.org

NTC

LLC

New Technology Corporation

20 İL SİZİNLƏ

Siviero Maria®




*Handmade in Italy*

GELATO ITALIANO AUTENTICO

